

# Oliqarxların "elmi ad sevgisi"nin sonu...

*Yola saldığımız həftə Prezident yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi addan məhrumetmə ilə bağlı qərarlara baxılma qaydası müəyyənləşib. Bu barədə ölkə başçısının fərmanı ilə təsdiqlənən "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"-də bildirilib. Sənəddə qeyd edilib ki, Komissiya şəxs elmi dərəcədən məhrum edildikdə, elmi ad verilməsi proseduru pozulduqda, elmi plagiat aşkar edildikdə, elmi etika pozulduqda elmi addan məhrumetmə ilə bağlı qərar verə biləcək.*

Səh.12

24 səhifə
Həftəlik qəzet

# UNİKAL

№31 (1970) 15 iyun 2019-cu il
Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev
www.unikal.org
unikal-1@mail.ru



## Dövlət Dəniz Agentliyinin 2 milyon manatlıq zərərinin sirri...

Səh.7



## Qarabağ cəbhəsində gərginlik yenidən artsa...

## Qüdrət Qurbanovun direktoru olduğu qurum niyə ziyanla işləyir?

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi 2018-ci ili 1 milyon 812 min manat xalis zərər ilə başa vurub. Bu barədə Agentliyin illik hesabatından məlum olur.*

*Belə ki, ötən il Dövlət Dəniz Agentliyinin cəmi gəlirləri 2 milyon 381 min manat, cəmi xərcləri isə 4 milyon 193 min manat təşkil edib. Xərclər gəlirləri üstələdiyindən Agentliyin zərəri yaranıb.*

*Həmçinin, ötən il Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi publik hüquqi şəxsin cəmi gəlirləri 2 milyon 474 min manat, cəmi xərcləri isə 2 milyon 650 min manat təşkil edib. Nəticədə Mərkəz ötən ili 176 min manat zərər ilə bağlayıb.*

Səh.13

## "Həmişə deyirəm ki, söyüş hər şeydən öncə çıxdığı ağzı bulaşdırar"



*Son illər ölkədə medianın inkişafı üçün müxtəlif istiqamətli addımlar atılsa da, müəyyən çatışmazlıqlar var, amma əsas odur ki, strateji sahələrdən sayılan medianın təkmilləşdirilməsi üçün səylər artırılıb. Bura dövlət dəstəyindən tutmuş, müasir texnologiyaların tətbiqi, yeni yanaşma, informasiya təhlükəsizliyinin təmini və s.*

Səh.4

## Çernobıl faciəsindən zərər çəkənlərin mənzil problemi




*Artıq bir neçə gündür ki, məşhur telekanal qrupu HBO-nun çəkdiyi "Çernobıl" serialı geniş rezonansa səbəb olub. Qeyd edək ki, Çernobıl qəzasının ləğvində Azərbaycandan da 8 minə qədər insan iştirak edib. Bəs görəsən Çernobılın azərbaycanlı iştirakçıları bu serialı real hesab edirmi?*

Səh.9

## Yoxlamalar başlayır, yeni cinayət işləri yoldadır...



*İki gün öncə ölkə başçısı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanuna edilmiş dəyişiklikləri təsdiqləyən sərəncam imzalayıb. Həmin dəyişikliklər aşağıdakı şəkildədir: "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun...*

Səh.10